**AZƏRBAYCAN RESPUBLİKASININ**
**MALİYYƏ NAZİRLİYİ**

# Q Ə R A R
**№ Q-01**

**Bakı şəhəri** **06 dekabr 2011-ci il**

**"İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi və bəzi normativ hüquqi aktların ləğv edilməsi haqqında**

"İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 500 nömrəli Fərmanının 1.3-cü bəndinin, həmçinin 3.1.1-ci, 3.1.2-ci, 3.1.5–3.1.11-ci yarımbəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi

**QƏRARA ALIR:**

**1.** "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, aşağıdakı normativ hüquqi aktlar təsdiq edilsin:

**1.1.** "Həyat sığortası və qeyri-həyat sığortası üzrə sığorta ehtiyatlarının formalaşdırılması Qaydaları" (əlavə olunur);

**1.2.** "İcbari sığorta növlərinin aparılmasına icazə verilməsi üçün əlavə tələblər" (əlavə olunur);

**1.3.** "Daşınmaz əmlakın icbari sığortası üzrə sığorta şəhadətnaməsinin forması, onun çap olunması və doldurulması Qaydaları" (əlavə olunur);

**1.4.** "Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə sığorta şəhadətnaməsinin forması, onun çap olunması və doldurulması Qaydaları" (əlavə olunur);

**1.5.** "Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta şəhadətnaməsinin forması, onun çap olunması və doldurulması Qaydaları" (əlavə olunur);

**1.6.** "Sərnişinlərin icbari fərdi qəza sığortası üzrə sığorta şəhadətnaməsinin forması, çap olunması və doldurulması Qaydaları" (əlavə olunur);

**1.7.** "İcbari Sığorta Bürosunun iştirakçısı olan sığortaçıların şərti öhdəliklər ehtiyatının formalaşdırılması Qaydası" (əlavə olunur);

**1.8.** "Daşınmaz əmlakın icbari sığortası üzrə sığorta tariflərinin müəyyənləşdirilməsi Qaydası" (əlavə olunur);

**1.9.** "Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə sığorta haqlarının məbləği (əlavə olunur);

**1.10.** "Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta haqqı məbləğlərinin hesablanması Qaydası" (əlavə olunur);

**1.11.** "Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə yol-nəqliyyat hadisəsi iştirakçılarının tərtib etdiyi protokolun forması və tərtib edilməsi Qaydası" (əlavə olunur);

**1.12.** "Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta hadisəsi hesab edilə bilən halın baş verməsi faktını təsdiqləyən arayışın forması" (əlavə olunur)[1];

**1.13.** "Sərnişinlərin icbari fərdi qəza sığortası üzrə sığorta haqlarının məbləğinin hesablanması Qaydası" (əlavə olunur);

**2.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin aşağıdakı normativ hüquqi aktları ləğv edilsin:

**2.1.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 2003-cü il 09 sentyabr tarixli İ-136 nömrəli əmri ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası haqqında" Təlimat;

**2.2.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 2005-ci il 04 may tarixli İ-53 nömrəli əmri ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında sığorta agentlərinin fəaliyyət Qaydaları";

**2.3.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 2005-ci il 04 may tarixli İ-53 nömrəli əmri ilə təsdiq olunmuş "Qeyri-həyat sığortası növləri üzrə sığorta ehtiyatlarının yaradılması və ayırmaların hesablanması Qaydaları";

**2.4.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 2008-ci il 14 noyabr tarixli İ-110 nömrəli əmri ilə təsdiq olunmuş **"**Həyat sığortası və qeyri-həyat sığortası üzrə sığorta ehtiyatlarının formalaşdırılması Qaydaları".

**3.** Maliyyə və sığorta bazarının tənzimlənməsi şöbəsinin müdirinə (Z.Allahverdiyev) və Dövlət Sığorta Nəzarəti Xidmətinin rəisinə (N.Xəlilov) tapşırılsın ki, Hüquq şöbəsinin müdiri (X.Rəhmanov) ilə birlikdə bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsinlər.

**4.** Bu qərarın icrasına nəzarət nazir müavini A. Bayramova həvalə edilsin.

**Nazir** **S.Şərifov**

---

[1] Bu bənd Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 2011-ci il 08 dekabr tarixli Q-03 nömrəli Qərarı ilə ləğv edilmişdir.